# QÜRURUMUZ



**İntiqam QASIMZADƏ**
*Əməkdar İncəsənət xadimi*
*"Azərbaycan" jurnalının baş redaktoru*

**Mən dedim ki, İlham Əliyev bu gün yalnız Azərbaycanın Prezidenti və Ali Baş Komandan deyil, həm də bütün fəaliyyəti ilə, apardığı müdrik, qabaqlayıcı, balanslaşdırılmış xarici siyasəti ilə və nəhayət 44 günlük Qarabağ müharibəsinin zəfərlə qurtarması üçün göstərdiyi fövqəladə sərkərdəliyi ilə Azərbaycan tarixinin ən yeni səhifəsini yazan böyük zəka və sarsılmaz iradə sahibi olduğunu bütün dünyaya göstərdi.**

Dekabrın 20-də Azərbaycan Yazıçılar Birliyi katibliyinin geniş tərkibli iclasında Birliyin sədri, Xalq yazıçısı Anarın ölkəmizin Prezidenti İlham Əliyevin 60 illik yubileyi ərəfəsində təşkilatımıza fəxri üzv seçilməsi barədə irəli sürdüyü təklif hamı tərəfindən razılıqla qarşılandı. Əslində, bu çox təbii və gözlənilən idi. Respublikamıza rəhbərlik etdiyi 18 il ərzində cənab İlham Əliyevin ölkəmizdə istər iqtisadiyyatı, istər kənd təsərrüfatı və istərsə də mədəni quruculuq sahələrində görülmüş geniş masştablı, yüksək səviyyəli işləri ölkə başçısının şəxsi istedadı və təşkilatçılıq məharəti olmadan təsəvvür etmək çətindir, heç mümkün deyil.

Anarın çox yığcam və mənalı çıxışından sonra söz alan natiqlər danışdıqca, nədənsə, xəyal məni keçən əsrin 70-ci illərinə apardı. O zaman Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri bu gün hamının böyük hörmət və məhəbbətlə ulu öndər dediyi Heydər Əliyev idi. Mən o illər artıq "Azərbaycan" jurnalında çalışırdım və təbii ki, respublikamızda gedən quruculuq illərini bir qələm adamı kimi diqqətlə izləyirdim. Geniş, çoxşaxəli fəaliyyətində Heydər Əliyev ümumən mədəni həyatımıza, o cümlədən də ədəbiyyatımıza xüsusi yer ayırırdı. Onun klassik ədəbiyyatımıza olan diqqəti barədə çox yazılıb və Nizami ilini başa vurduğumuz bu günlərdə də bu haqda yenə hörmət və ehtiramla danışılır.

Ulu öndərin onunla bir dövrdə yaşayan yazıçıların bir çoxu ilə xoş münasibəti vardı. Yazıçıların o zaman keçirilən bütün qurultaylarında, demək olar ki, əvvəldən axıradək iştirak edirdi. Yazıçılara qayğısı haqqında saatlarla danışmaq olar. Yazıçılar da bu doğma münasibətə görə minnətdarlıqlarını rəhbəri öz birliklərinin fəxri üzvü seçməklə bildirmişdilər.

Bu gün unudulmaz Heydər Əliyevin oğlu və layiqli davamçısı İlham Əliyevi böyük səmimiyyətlə Yazıçılar Birliyinin fəxri üzvü seçdik. Bu təkcə yazıçıların yox, bütün Azərbaycan xalqının ona olan sevgisinin daha bir ifadəsidir. Qarabağa qalib qayıtmağımızın, torpaqlarımıza sahib olmağımızın, bir sözlə, qələbəmizin memarı odur.

Katibliyin iclasında 1978-ci ildə şahidi olduğum maraqlı bir epizodu da xatırladım. O illər Heydər Əliyev respublikanın rayonlarına təsərrüfatla tanış olmaq, zəhmətkeşlərlə görüşmək üçün səfərlərə çıxırdı. Bu səfərlərə o, yazıçılardan da 2-3 nəfəri özü ilə aparırdı. Belə bir səfərdə iştirak etmək mənə də nəsib olmuşdu.

Yadımdadır, xüsusi qatarla Gəncəyə getdik. Oradan bizi maşınlarla Xanlar rayonunun üzüm bağlarına apardılar. Ulu öndərlə bütün günü təsərrüfatlarda olduq. Axşamüstü Gəncədə o zaman yenicə açılmış Nizami Gəncəvi Teatrında olduq, böyük şairin əsərləri əsasında hazırlanmış kompozisiyalara tamaşa etdik.

Mənim bəxtim gətirmişdi, düz Heydər Əliyevdən arxada oturmuşdum. Yanında isə gənc bir oğlan əyləşmişdi, dərhal tanıdım - indiki Zərifə Əliyeva prospektində qonşu olmuşduq axı - rəhbərin oğlu İlham idi.

Heydər Əliyev narın-narın, çox yavaş bir səslə ona Nizaminin Azərbaycan üçün nə qədər dəyərli bir sənətkar, müdrik insan, filosof-şair olması, dünya poeziyasında yeri barədə qısa, amma dəqiq fikirlər söyləyirdi. Bu günə kimi, unutmadığım bir ştrixdir, Heydər Əliyev dediyi üçün yaddaşımda qalmışdı... İllər keçdi, İlham Əliyev Azərbaycanın Prezidenti oldu və 2021-ci ilin "Nizami Gəncəvi İli" kimi qeyd olunması barədə Sərəncam verdi.

Nəhayət, mən də katibliyin iclasında Anarın təklifi ilə əlaqədar bir neçə kəlmə öz fikrimi söylədim. Bu qeydlərimi də elə orda dediklərimlə bitirmək istəyirəm.

Mən dedim ki, İlham Əliyev bu gün yalnız Azərbaycanın Prezidenti və Ali Baş Komandan deyil, həm də bütün fəaliyyəti ilə apardığı müdrik, qabaqlayıcı, balanslaşdırılmış xarici siyasəti ilə və nəhayət, 44 günlük Qarabağ müharibəsinin zəfərlə qurtarması üçün göstərdiyi fövqəladə sərkərdəliyi ilə Azərbaycan tarixinin ən yeni səhifəsini yazan böyük zəka və sarsılmaz iradə sahibi olduğunu bütün dünyaya göstərdi.

O, vətənə sonsuz məhəbbətlə yeni Azərbaycan tarixini yaradır və bu tarixi yazır. Deməli, o həm də qələm adamı - yazıçıdır. Biz bundan belə onun birliyimizin fəxri üzvü olması ilə də qürur duyacağıq.

*21.12.2021*